**G.K.CƏNNƏTOVA**
*filologiya üzrə fəlsəfə doktoru,*
*dosent, böyük elmi işçi*
*e-mail: jannatova2021@gmail.com*
**:https://orcid.org/0000-0002-8216-1435**

**AMEA Folklor İnstitutu**
(Bakı şəh., 8-ci Kiçik Qala, 31)

**10.62021/0026-0028.2025.2.142**

# MONOMİF NƏZƏRİYYƏSİ – XRONOTOPİK MOTİV UNİVERSALLIĞININ TƏSBİTİ KİMİ

***Xülasə.*** *Bu məqalədə Cozef Kempbellin monomif nəzəriyyəsi – "Qəhrəmanın yolçuluğu" konsepsiyası – mifoloji və folklor kontekstində tədqiq edilir və xüsusilə türk epik irsinə xronotop yanaşması prizmasından baxılır. Müəllif sübut edir ki, müxtəlif xalqların folklor və ədəbiyyatındakı təkrarlanan arxetip süjetlər və obrazlar təkcə mədəni əlaqələrlə deyil, həm də insan psixikasının universal strukturları ilə izah oluna bilər. "Kitabi-Dədə Qorqud", "Alpamış" və "Maaday-Qara" kimi epik mətnlər qəhrəmanın inisiasiya yolu, şəxsiyyətin transformasiyası və sosial-fəlsəfi yenidən doğuluş baxımından təhlil olunur. Məqalədə Karl Qustav Yunqun kollektiv şüursuzluq konsepsiyası ilə Kempbellin universal narrativlər nəzəriyyəsi arasında paralellər aparılır.*
*Xüsusi diqqət mifoloji xronotopa və Mirça Eliade ilə Yuri Meletinskiyə istinadla məkan-zaman koordinatlarının mənalandırıcı yükünə yönəldilir. Həmçinin monomifin effektiv bir süjet modeli kimi bu gün də aktual olduğunu göstərən müasir kino nümunələrinə yer verilir.*
*Məqalə folklorşünaslıq və mədəniyyət nəzəriyyəsi sahəsində universal kodların, arxetip motivlərin və narrativ strukturların araşdırılmasına töhfə kimi təqdim olunur.*

***Açar sözlər:*** *monomif, qəhrəmanın yolçuluğu, arxerip, xronotop, folklor və mifologiya, inisiasiya*

**Giriş.** Artıq məlum olduğu kimi, ayrı-ayrı xalqların, hətta qohum xalqların folklor irsinin tədqiqatçıları müəyyən ortaqlıq, bənzərlik faktlarının hər hansı bir vahid mental qanunauyğunluqdan qaynaqlana bildiyi ehtimallarını səsləndirmişlər. Konkret olaraq, "Kitabi-Dədə Qorqud"dakı Bamsı Beyrəklə bağlı süjetin bir çox türk xalqlarının dastan ədəbiyyatı üçün tirajlandırılan, yəni bu və ya digər interpretasiyalar çərçivəsində əslində, təkrar edilən ortaq süjet xəttinə istinad etdiyi tədqiqatçılar tərəfindən, birmənalı şəkildə etiraf edilir. Lakin bu süjet xəttinin Homerin "Odisseya"sı ilə əlaqəliliyi məqamı heç də əksər türkoloq-folklorşünaslar tərəfindən eyni yekdilliklə təqdirlə qarşılanmır. Daha dəqiq desək, müəyyən aşkar paralellərin etirafı fonunda, əksər tədqiqatçılar heç də bu paralelliyin müəyyən ortaqlığa, müəyyən qanunauyğunluğa söykəndiyini iddia etməkdə tələsmirlər. Hətta artıq bəhs etdiyimiz kimi, bu ortaqlığın hansısa vahid əsasa, ortaq mənbə ilə bağlılığı ilə əlaqədar ehtimallar bir qisim tədqiqatçıların aktiv etirazına yol açır.

Lakin fərqli dillərdə danışan, fərqli mənşəli dünya mənzərəsinə malik olan və eləcə də, müxtəlif kulturoloji-etik kodlara malik olan toplumların folklor irsi ilə, ədəbiyyat tarixi ilə müştərək şəkildə məşğul olan alimlərin bu ölməz ədəbi nümunələrin müqayisəli-qarşılaşdırmalı formatda araşdırması üçün geniş imkanlar yaranır. Məhz bu əsasda universal olan, ortaq olan obrazlar düzümünün, süjet arxetipləşmələrinin mövcudluğunu təsbiti ilə bağlı monumental tədqiqatlar ortaya çıxır. Akademik təhsil baxımından, ingilis ədəbiyyatı mütəxəssisi kimi formalaşan C.Kemplellin belə bir şansı, belə bir imtiyazı olmuşdur. Nəticədə o, dünya mifoloji irsinin ortaq arxetip əsasını, metassenarisini, ilkin-qəlib süjet strukturunu əhatə edən mono-

mif nəzəriyyəsini və qəhrəmanın yolu konsepsiyasını yaratmağa müvəffəq olmuşdur. Bütün bunların əsasında minilliklərin yaşam təcrübəsinə istinad edən, insan psixikasının gizlinlərini və zəkasının ənginliklərini bir şablon stereotipikləşmələrə sığdıra bilən və eyni zamanda əsrlər öncəsində aktual olduğu qədər müasir mif yaradıcılığı üçün də keçərli olan bu qəlib, narrativ strukturu sxemi formalaşdırılmışdır (məsələn, "Ulduz müharibələri" kino-epopeyası, Harri Poter haqqında ekranlaşdırılmış saqa, "Matrisa" və "Üzüklərin əfəndisi" trilogiyaları və s. kino eposların timsalında görmək olar) [1]. Yəni alim bir növ, həm tarixəqədərki, həm də tarixi dövr mədəniyyətlərini dərindən tədqiq etməklə universal olan kodlaşma mexanizmlərini, mental unifikasiya mexanizmlərini təsbit etmək üçün zəngin bilik və bacarıqlar əldə etmişdir. Beləliklə də, Y.M.Meletinskinin sözləri ilə desək, analitik psixologiya ardıcıllarının (bu sırada alim C.Kempellin adını ön sıralarda çəkir) analitik mifologiya konsepsiyasını ərsəyə gətirməsi mümkün oldu. Y.M.Meletinski monomif nəzəriyyəsinin ən lakonik təfsiri verməklə onun individuasiya prosesi, yəni qəhrəmanın şəxsiyyətinin formalaşması prosesi kimi ortaya çıxdığını da vurğulayır [2, s.7-8]. Doğrudan da, "Qəhrəmanın yolu" sxemli monomif nəzəriyyəsi əslində, qəhərəmanın daxili transformasiyasından bəhs edən, onun öz real kimliyinə qovuşması, özünü, öz mənini kəşfi yolçuluğuna həsr edilmişdir. Buradakı kəşf faktının ilk baxışdan asanlığı məqamı aldadıcı təəssürat yaratmamalıdır: qəhrəman öz real mənini çox ağrılı sınaq və imtahanlar sayəsində, uzun həyat yolçuluğunun nəzəticəsində əldə edə bilir.

Təqdirəlayiq haldır ki, türk folklorlunun, dastan-nağıl ədəbiyyatının tədqiqi işinə C.Kempellin monomif nəzəriyyəsinin əsas konseptual məqamlarının yetərincə uğurlu tətbiqi təcrübələri vardır. Bu sırada L.B.Karayevanın, Z.B.Karayevanın qaraçay-balkar folklor materiallarına istinadən apardığı araşdırmalarını [3, s.23], E.T.Janısbəyovanın müasir qazax ədəbiyyatında [5, s.18-21], L.X.Davletçinanın tatar ədəbiyyatında [5, s.17] mifoloji obraz və motivlərin tədqiqi kontekstində apardığı təhlil və paralelləri xüsusilə qeyd etmək olar.

Özbək folklorşünası M.Jurayev müqayisəli təhlilləri əsasında bilvasitə **Qəhrəmanın yolu konsepsiyası** ilə əlaqələndirmə aparmasa da, intuitiv olaraq, çox doğru paralellərə yol verərək, Alpamış haqqındakı dastanda dastanın müəyyən zaman və məkan çərçivəsindəki səyahət və sərgərdanlığının, əslində özünü tanıma, özünəqayıdış mahiyyətli olduğunu (bir qədər dolayı şəkildə olsa da) etiraf etmişdi. O, Homerin Odesseyasındakı və özbək qəhrəmanlıq eposundakı ərin səyahəti motivinin əslində ortaq tarixi ideyanın relikt izləri olduğu qənaətini dilə gətirmişdi.

M.Eliadenin orijinal adı "Ədəbi geridönüş haqqında mif: arxetip və təkrarlar" olan əsəri C.Kempbelin monomif nəzəriyyəsini elmi ictimaiyyətə təqdim edən "Min simalı qəhrəman" monoqrafiyası ilə eyni ildə – 1949-cu ildə Parisdə işıq üzü görmüşdü. Tez bir zamanda müxtəlif dillərə tərcümə edilən bu əsərdə də bilavasitə K.Q.Yunqun arxetip konsepsiyasının folklor materialı əsasında təkrar oxunuşuna, təhlilinə və bu əsasda formalaşan ortaq mifoloji doktrinə istinad edir. Bu əsərin məhz, C.Kempbellin monoqrafik tədqiqatı ilə eyni vaxtda ərsəyə gəlməsi və eyni problemlər bağlı fərqli interpretasiyaları təqdim etməsinə baxmayaraq, müəyyən mədəniyyət universalilərinə, psixoloji şablon-ortaqlıqlara əsaslanması da heç də təsadüfi deyildi. Belə ki, 1919-cu ildə analitik psixologiyanın yaradıcısı K.Q.Yunqun "Ruhlara inancın psixoloji əsasları" mövzulu fundamental araşdırmalarının (silsilə mühazirələrinin) elmi mühitə bəyan edilməsi ilə, təkcə psixologiya və psixiatriya sahəsində deyil, eləcə də bir çox humanitar elmlərdə, xüsusilə də müqayisəli folklorşünaslıq və müqayisəli mifologiya (mifşünaslıq anlamında) istiqamətlərində sıçrayışlı inkişaf və yeni araşdırma formatının tətbiqi ilə keyfiyyət yenilənməsi mümkün olmuşdur (bu haqda daha ətraflı bax: 6). Təsadüfi deyil ki, elə K.Q.Yunqun özü mifologiyanı, bir növ, atxetiplərin dərsliyi statusunda dəyərləndirmiş, miflərin tamamən arxetip obrazlardan, arxetip süjetlərdən formalaşdırıldığını irəli sürmüşdür [6, s.17].

Folklor və eposlarda arxetiplərin mühüm struktur formalaşdırıcı faktor olduğunu ortaya qoyan silsilə tədqiqatlar süjet ortaqlıqlarının sırf mədəni əlaqələrlə şərtlənmədiyini, belə ortaqlıqların vahid süjet və personaj arxetiplərinin mövcudluğundan qaynaqlandığını qeyd etmişlər.

Bilavasitə Avropa sivilizasiyalarına istinadən, konkret olaraq, Hind-Avropa mənşəli mədəniyyətlərin (yəni Avropada yaşayan və Hind-Avropa dil ailəsinə daxil olan fərqli dillərdə danışan xalqların mədəni irsinin) tarixinə baş vurmaqla yazılmış bu kitabda müəllif müəyyən arxaik ontologiya formatını ortaya qoyur. M.Eliadenin apardığı araşdırmalarda fəlsəfi antropologiya ilə ənənəvi metafizikanın sintezləşdirilmiş təhlil formatı sayəsində Qusserlin, J.Dyumezilin, E.Dyurkgeymin, Freydin, Haydeggerin və təbii ki, Yunqun tədqiqatlarının təkrar (qeyd olunan yeni formatda) təkrar təftiş və dəyərləndirilməsi təqdim edilir. Eliadenin araşdırmasını bizim tədqiqatın obyekti ilə əlaqəliliyi baxımından, xüsusilə dəyərli və maraqlı edən cəhət ondan ibarətdir ki, alim zaman və məkana fərqli anlamlar yükləməkdə qədim insanın təsəvvürlərindəki zaman-məkan kontiniumunun mifoloji təfəkkürdəki zaman-məkan kontiniumu haqqındakı təsəvvürlərə keçid etdirərkən baş vermiş mental proseslərin mahiyyəti ilə bağlı ehtimalllarını səsləndirmişdir. M.Eliadeyə görə, mədəniyyət universalilər (yəni, mədəniyyət arxetipləri), mif və rituallar, bir növ əbədi geridönüşü mümkün edən əsas faktorlardır.

Sözsüz ki, bu heç də o anlama gəlmir ki, biz, epos qəhrəmanlarının hər addımını, zaman-məkan koordinatları çərçivəsində yerdəyişimini mütləq şəkildə arxetip qəlibləşdirməsi çərçivəsinə sığdırmalı və ya monomif qəhrəmanının yolu prizmasından dəyərləndirməliyik. Belə klişeləşmiş struktur tərtibata və epik narrativ reallaşmasına malik olan istənilən dastan digər eposun təkrarı, imitasiyasından başqa bir şey olmazdı. Deməli, biz, universal olan arxetip obrazlar, arxetip süjet və bloklar fərqləndirməsinin universal kodlaşdırma aparatı kimi rolunu inkar etmədən, monomifin kollektiv şüursuzluq yönləndirməsindəki təsir gücünü şübhə altına almadan, konkret verilmiş dastan mətnindəki spesifik ifadə reallığını da nəzərə almalıyıq. Yəni istər "Kitabi-Dədə Qorqud", istər "Alpamış", istər "Maaday Kara" dastanlarında ortaq olan arxetip səviyyənin mövcudluğu onların fərdi epos təfəkkürü məhsulu olması gerçəkliyini və bu səbəbdən də obrazların zaman-məkan irəliləməsində müəyyən təkrarsızlıqların olmasının norma olduğunu qəbul etməliyik və sonuncuların mövcudluğu isə, əksinə olaraq, nə arxetip nəzəriyyəsini və də monomif konsepsiyasının inkarı anlamına gəlməyəcəkdir. Bu mənada insanın yaşımı, bütövlükdə, həyat üçün tarixin faydası və zərəri ilə bağlı qeyri-müasir, əslində isə qeyri-ordinar düşüncələrini dilə gətirmiş F.Nitşenin yanaşması maraq doğurmaya bilməz. Yalnız sağlam instinktin tarixi missiya ilə qeyri-tarixi fəaliyyət arasında fərqləndirmə aparmağa qadir olduğunu qeyd edən dahi filosof ayrılıqda nəzərdən keçirilən fərd üçün, onun mental sağlığı üçün tarixi olanla, qeyri-tarixi olanın eyni dərəcədə vacib və əhəmiyyətli olduğunu vurğulamışdır [7, s.164].

Qəhrəmanın yolçuluğunun universallığı, arxetip səciyyəli zaman-məkan dəyişimi məsələləri Cozef Kempellin monomif nəzəriyyəsində yetərincə fərqli aspektdən öz əsaslandırmasını qazanmışdır. Belə ki, yunqian (yəni arxetip nəzəriyyəsinin banisi, kollektiv şüur konsepsiyasının müəllifi dahi İsveçrə psixoloqu, psixoterapevti, mütəfəkkiri Karl Qustav Yunqun tərəfdarı olan) müəlliflərdən sayılan və bu əsasda toplumun birikdirilmiş universal qavrayış və dəyərləndirmə sistemlərinin olduğunu və bu sistemlərin şüuraltımızı yönləndirərək davranış qəliblərinin (patternlərinin) formalaşmasına yol açması kimi ideyaların lehinə faktoloji əsaslandırmadan çıxış edən C.Kempell "Qəhrəmanın yolçuluğu" konsepsiyasını irəli sürmüşdür. Həmin konsepsiyaya görə, mif və ya epos qəhrəmanları universal olan bir yol xəritəsini izləyirlər və yol xəritəsində aşağı-yuxarı bənzər, hətta bir çox halda eyni olan sınaq mərhələlərindən keçərək inisiasiya qazanırlar. Son inisiasiya mərhələsində sıravi insan kimi dinləyiciyə, oxucuya və ya hətta hal-hazırda tamaşaçıya təqdim olunan qəhrəmanın əsl qəhrəmana çevrilməsi mümkün olur. Deməli, aparıcı obrazın situativ süjet qəhrəmanı kimi deyil, əsl arxetip qəhrəman kimi formalaşması yalnız və yalnız müəyyən zaman-məkan şərtilikləri çərçivəsində mümkün olur. Həmin zaman-məkan şərtilikləri təxmini on yeddi mərhələni əhatə edir. Lakin konsepsiya müəllifinin özünün də etiraf etdiyi kimi, bütün miflərdə və ya eposlarda on yeddi mərhələnin hamısının, tam şəkildə keçildiyi təsbit edilmir.

Bu məqamda onu qeyd etmək istərdik ki, görkəmli ABŞ yazarı, ssenaristi K.Voqler C.Kempellin "Qəhrəmanın yolçuluğu" konsepsiyasını daha lakonikləşdirərək ilkin variantdakı on yeddi mərhələnin sayını on ikiyə qədər azaltmışdır.

Məhz, C.Kempellin "Qəhrəmanın yolçuluğu" konsepsiyası əsasında müasir miflərin yazılışında, yəni fentezi janrındakı, əlaqəli janrlardakı blokbasterlərinin (yəni istər kommersiya, istər sənətkarlıq xüsusiyyətləri baxımından üstün göstəricilər nümayiş etdirən kino əsərləri) ssenarilərinin yazılışı üçün rəhbərlik hazırlamışdır. İlk nəşrində K.Voqlerin kitabının adında yer alan ("The Writer's Journey: Mythic Structure for Storytellers and Screenwriters", 1992) "söyləyici", "təhkiyəçi" anlayışı daha sonrakı elmi-texniki tərəqqi formatında reklamların, brend təqdimatının, ümumən marketinqdə, bloq müəlliflərinin oxucusuna, tamaşaçısına, izləyicisinə, müştərisinə müraciət formatı kimi də, auditoriyanın diqqətinin yönləndirilməsi alqoritmi kimi də qəbul edilməyə başlamışdır.

Xatırladaq ki, məşhur etnoqraf alim Frans Boas mühazirələrini dinləyən, Con Dyui fəlsəfəsindən ciddi şəkildə təsirlənən və Z.Freyd, K.Q.Yunq araşdırmalarında ciddi şəkildə bəhrələnən C.Kempbell özünün "Qəhrəmanın yolçuluğu" konsepsiyasında, ümumilikdə, bəşər övladına xas olan səyahət, yol, axtarış, arayış fəaliyyətinin xarakterik olduğunu təsbit etmiş və bunun təkcə zaman-məkan koordinatlarının dəyişimi deyil, eləcə də bu zaman-məkan koordinatları dəyişimi çərçivəsində gerçəkləşən psixoloji, emosional yetkinləşmə, yenilənmə kimi təqdim etmişdir. Yəni insan tarix yaranandan yaratdığı mifoloji, folklor, müəllif ədəbiyyatlarında insanın yerdəyişməsinin təsviri ssenarisi çərçivəsində süjet kolliziyalarını yaratmış və bu zaman-məkan dəyişiminin qəhrəmanın daxili metamorfozlarına yol açma kimi təsir gücünü ortaya qoymuşdur. Həmin dəyişimlər son nəticədə qəhrəmanın daha yetkin şəxsiyyət kimi formalaşmasını mümkün edir. Bu isə öz növbəsində, insanın öz cılız hissələrinə qalib gəlməklə, fövqəlinsan kimliyinə qovuşmaq yolundakı çırpıntılarını, bu yolun ağrılı mərhələlərini ortaya qoyur. Tədqiqatçıların da vurğuladığı kimi, bu zaman qəhrəmanın mübarizə apardığı kənar qüvvələr və onu (qəhrəmanı) sınağa çəkən, imtahan edən ağır həyati şəraitlər, əslində onun daxili qorxu və komplekslərinin, şüuraltındakı qəlibləşmiş patternlərin (davranış modellərinin) mifoloji dildəki ifadəsidir. Bu zaman qəhrəmanın yolunun son mərhələsində əldə edilən qalibiyyət onu sosial-psixoloji zəmində yeni pilləyə yüklədir və bununla da yeni şəxsiyyətin, keyfiyyətcə yeni fərdin doğulması, meydana çıxması mümkün olur. Analoji məqamı biz, bütün ağrı-acılara sinə gərərək Maaday Qaranın oğlu statusundan Altay elinin alp əreni statusuna qədər yüksələ bilmiş Gögüdey Mergenin qəhrəmanın yolu trayektoriyasında izləyirik. Eyni situasiyanı biz, Dirsə xanın oğlu Buğacın özünü tanıtmaq, özünü təsdiqlətmək çabalarındakı izlədiyi mübarizədə, haqlılığının sübutu üçün apardığı mücadilədə və nəticədə özünün bir bəy kimi (bəyzadə kimi deyil, sadəcə Dirsə xanın oğlu kimi deyil), bir Oğuz bəyi kimi yeni statusdakı təkrar doğuluşunda (ölümdən geri dönüşündə) görürük.

***Məqalənin elmi yeniliyi.*** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, burada Cozef Kempbellin "monomif" nəzəriyyəsi və "Qəhrəmanın yolçuluğu" konsepsiyası ilk dəfə olaraq türk epik irsinin xronotopik təhlili ilə əlaqələndirilərək kompleks şəkildə şərh olunur. Müəllif müxtəlif türk xalqlarına məxsus dastanlarda – "Kitabi-Dədə Qorqud", "Alpamış", "Maaday Qara" və s. – qəhrəmanın zaman və məkan koordinatları çərçivəsində keçirdiyi transformasiya prosesini universal arxetip modelin lokal ifadə forması kimi təqdim edir. Məqalədə həmçinin arxetip və xronotop anlayışlarının K.Q.Yunq, M.Eliade və Y.M.Meletinskinin nəzəri çərçivələrində təhlili aparılaraq, monomif strukturlarının kollektiv şüursuzluqda kodlaşmış mifoloji təfəkkür nümunəsi kimi bəşəri dəyərlərin ötürülməsindəki rolu əsaslandırılır. Bundan başqa, monomif modelinin çağdaş kinematoqrafiyada tətbiqi kontekstində (məsələn, "Ulduz müharibələri", "Üzüklərin hökmdarı" və s.) təqdim edilməsi folklor strukturlarının dinamik transformasiya potensialını ortaya çıxarır. Məqalə xronotopik motivin arxetipik səviyyədə bəşəri kodlaşdırma sistemlərinin təzahürü kimi aktuallığını vurğulayaraq həm klassik, həm də müasir mif yaradıcılığına yeni baxış bucağı təqdim edir.

***Elmi nəticə.*** Aparılan tədqiqat göstərdi ki, Cozef Kempbellin "monomif" nəzəriyyəsi və onun "Qəhrəmanın yolçuluğu" konsepsiyası yalnız Qərb mifologiyasının deyil, həm də türk epik folklorunun əsas struktur kodlarını izah etmək baxımından funksional nəzəri model kimi çıxış edə bilər. "Kitabi-Dədə Qorqud", "Alpamış", "Maaday Qara" kimi dastanlarda qəhrəmanın keçdiyi sınaq və inisiasiya mərhələləri, zaman-məkan dəyişkənliyi, psixoloji və sosial transformasiya prosesi bu nəzəriyyənin əsas prinsipləri ilə üst-üstə düşür. Mifoloji və epik mətnlərdəki arxetip obraz və motivlərin xronotopik strukturda təkrarlanması isə bu elementlərin təsadüfi deyil, kollektiv şüursuzluğun məhsulu olan universal mifoloji modelə bağlı olduğunu sübut edir. Məqalədə həmçinin qeyd olunur ki, eposlardakı fərdi xüsusiyyətlər monomif modelinin avtomatik təkrarı yox, onun lokal mədəniyyətlərdəki spesifik təzahür formalarıdır. Bu yanaşma həm folklorşünaslıqda, həm də mifoloji təhlildə mədəniyyətlərarası paralellərin müəyyənləşdirilməsinə və universal motivlərin lokal ifadə imkanlarının ortaya çıxarılmasına yeni metodoloji imkanlar açır.

***Tətbiqi əhəmiyyəti.*** Məqalədə təqdim olunan nəzəri müddəalar və analitik nəticələr folklor, mifologiya və ədəbiyyatşünaslıq sahəsində aparılan tədqiqatlar üçün mühüm tətbiqi əhəmiyyət daşıyır. Monomif modelinin türk dastanlarına tətbiqi həmin mətnlərin struktural təhlilində vahid konseptual yanaşma formalaşdırmağa imkan verir. Bu yanaşma vasitəsilə epik qəhrəmanın inisiasiya yolu, daxili və sosial transformasiya mərhələləri daha sistemli şəkildə öyrənilə bilər. Eyni zamanda, monomif nəzəriyyəsinin müasir vizual mədəniyyətdə – xüsusilə kino sənətində (ssenaristlik, ekranlaşdırma) uğurla tətbiq olunması, bu modelin tədris proqramlarında (ədəbiyyat nəzəriyyəsi, mədəniyyətlərarası kommunikasiya, yaradıcılıq kursları) istifadəsini mümkün edir.

## Ədəbiyyat


1. Campbell, J. The Hero With A Thousand Faces // http://www.rosenfels.org
2. Мелетинский, Е.М. О литературных архетипах / Е.М.Мелетинский, – Москва: РГГУ, – 1994. – 136 с.
3. Караева, Л.Б., Караева, З.Б. Структура мономифа в карачаево-балкарском фольклоре. песня-легенда «Бийнёгер» // Мир науки, культуры, образования, – 2021.
4. Жанысбекова, Э.Т. Мифологические образы и мотивы в современной казахстанской прозе, Диссертация на соискание степени доктора философии (PhD), – Алматы, – 2018, – 161 с.
5. Давлетшина, Л.Х. Мифологизм в татарской прозе конца XX – начала XXI веков, автореферат диссертации на соискание ученой степени кандидата филологических наук, – Казань, – 2005, – 24 с.
6. Юнг, К.Г. Душа и миф: шесть архетипов / К.Г.Юнг. –Киев: Государственная библиотека Украины для юношества, – 1996, – 251 с.
7. Ницше, Ф. Несвоевременные размышления: «О пользе и вреде истории для жизни» // Ницше Ф. Сочинения: в 2 т. – М.: Мысль, – 1990. – Т. 1. Литературные памятники. – с. 158-230.


**G.K.Jannatova**

**The Monomyth Theory as the Identification of Chronotopic Motif Universality**

***Summary***

This article explores Joseph Campbell's theory of the monomyth – the "Hero's Journey" – through a mythological and folkloristic lens, with a particular focus on the chronotopic approach in Turkic epics. The author argues that the recurrence of archetypal plots and characters across diverse literary and folkloric traditions is rooted not only in cultural interactions, but in universal structures of the human psyche. Epic texts such as *The Book of Dede Korkut*, *Alpamish*, and *Maaday Kara* are analyzed within the framework of the hero's initiation journey, personal transformation, and socio-philosophical rebirth. The study draws connections between C.G. Jung's concept of the collective unconscious and Campbell's theory of narrative universals. The specificity of mythological chronotopes and the semantic

charge of time-space coordinates are examined through the lens of M. Eliade's and Y.M. Meletinsky's theoretical insights. Contemporary examples from cinema demonstrate the ongoing relevance of the monomyth model as a powerful narrative structure. The article contributes to the investigation of universal codes, archetypal motifs, and narrative structures in folklore studies and cultural theory.

***Key words:*** *monomyth, hero's journey, archetype, chronotope, folklore and mythology, initiation*

**Г.К.Джаннатова**

**Теория мономифа как установление универсальности хронотопического мотива**

***Резюме***

В данной статье рассматривается теория мономифа Джозефа Кэмпбелла – концепция «Пути героя» – в мифологическом и фольклорном контексте, с акцентом на хронотопический подход к тюркским эпосам. Автор доказывает, что повторяющиеся архетипические сюжеты и образы в фольклоре и литературе разных народов обусловлены не только культурными связями, но и универсальными структурами человеческой психики. Эпические тексты, такие как *Книга Деде Коркута*, *Алпамыш* и *Маадай-Кара*, анализируются с точки зрения инициационного пути героя, личностной трансформации и социо-философского перерождения. В работе проводится параллель между концепцией коллективного бессознательного К.Г. Юнга и теорией универсальных нарративов Кэмпбелла. Особое внимание уделяется мифологическому хронотопу и смысловой нагрузке пространственно-временных координат на основе идей М. Элиаде и Ю.М. Мелетинского. Также приведены современные примеры из кинематографа, подтверждающие актуальность мономифа как действенного повествовательного шаблона. Статья представляет собой вклад в исследование универсальных кодов, архетипических мотивов и нарративных структур в фольклористике и теории культуры.

***Ключевые слова:*** *мономиф, путь героя, архетип, хронотоп, фольклор и мифология, инициация*

*Rəyçi: filol.f.d., dos. A.Ramazanova*

*Redaksiyaya daxil olub: 14.05.2025*